## *PEDAQOJİ FİKİR NÜMAYƏNDƏLƏRİ*

### *Professor Vidadi Xəlilov – 75*

# PEDAQOGİKA ELMİNİN LƏYAQƏTLİ NÜMAYƏNDƏSİ



Professor, əməkdar elm xadimi Fərrux Rüstəmov müasir pedaqogika elminin nümayəndələrini üç mühüm dövr səciyyələndirmişdir. Akademik M.M. Mehdizadəni, professorlar Ə.Y. Seyidovu, M.Ə. Muradxanovu – pedaqogika elminin "qızıl sacayaqları"; akad. H.M. Əhmədovu, professorlar N.M. Kazımovu, Ə.Ş. Həşimovu, Y.R. Talıbovu isə pedaqogika elminin "sultanları" adlandırmışdır; Üçüncü nəsil pedaqoqlara professor Əjdər Ağayevin başçılıq etdiyini diqqət mərkəzinə gətirmişdir. Tarixi faktlar əsasında irəli sürülən bu fikir maraq doğurur. V. Xəlilovun anadan olmasının 75 illiyini qeyd etməyə hazırlaşdığımız pedaqogika üzrə elmlər doktoru, professor Vidadi Xəlilov da üçüncü nəslə aid pedaqoqlardandır.

Vidadi Cəmil oğlu Xəlilov 25 dekabr 1942-ci il Cəbrayıl rayonunun Çərəkən kəndində dünyaya göz açıb. 1959-cu ildə orta məktəbi bitirmiş, təhsilini Azərbaycan Dövlət Pedaqoji İnstitutunun pedaqogika və ibtidai təhsil metodikası fakültəsində davam etdirmişdir. İnstitutun son kursunda oxuyarkən və o, Bakıdakı 7 nömrəli orta məktəbdə staj təcrübəsində olarkən 1963-1966-cı ildə isə rəhbər və musiqi müəllimi vəzifəsində çalışmağa başlamış, bu istiqamətdə fəaliyyətini 132 nömrəli məktəbdə də davam etdirmişdir.

Hələ tələbəlik illərində və pedaqoji fəaliyyəti dövründə elmi araşdırmaları ilə tanınan V. Xəlilov müəyyən təcrübə topladıqdan, sonra 1968-ci ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunun (indiki Azərbaycan Respublikasının Təhsil İnstitutunun) aspiranturasına daxil olmuşdur.

İbtidai siniflərdə Azərbaycan xalq yaradıcılığı nümunələrinin öyrənilməsi, estetik tərbiyə vasitəsi kimi "Musiqi və ədəbi folklor nümunələri əsasında" mövzusunda namizədlik dissertasiyasını tamamlayaraq müdafiəyə təqdim etmişdir. Aspiranturada təhsilini uğurla başa vurduqdan sonra institutda kiçik elmi işçi (1971), baş elmi işçi (1976) vəzifəsində çalışdı, estetik tərbiyəni həmişə aktual olan problemlər üzrə tədqiqat apardı.

Estetik tərbiyənin nəzəri və təcrübi məsələlərini mükəmməl mənimsəyən Vidadi Xəlilov 1977-ci ilin yanvar ayında Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda yeni yaradılan Estetik tərbiyə şöbəsinin müdiri vəzifəsinə seçildi. O, 23 il ərzində fasiləsiz olaraq bu şöbəyə rəhbərlik etmiş, elmi işçiləri, aspirant və dissertantları böyüməkdə olan nəslin estetik tərbiyəsi üzrə ən aktual mövzularda tədqiqat aparmağa istiqamətləndirmişdir. Şöbənin fəaliyyətə başladığı ilk illərdən keçmiş SSRİ Pedaqoji Elmlər Akademiyası və onun sahə institutları, habelə Ukrayna, Belarusiya, Latviya, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Gürcüstan, Moldova və digər respublikaların Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutları ilə sıx əlaqə yaradıldı. Bütün bunlar müsbət təsirini göstərdi, əsaslı irəliləyişə səbəb oldu.

"Azərbaycan ümumtəhsil məktəblərində estetik tərbiyənin nəzəriyyəsi və təcrübəsi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etdikdən sonrada tanınmış sahə mütəxəssisi tərəfindən yüksək qiymətləndirildi.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 14 noyabr 1997-ci il tarixi qərarı ilə pedaqogikanın nəzəriyyəsi və tarixi ixtisası üzrə professor elmi adına layiq görüldü.

Professor Vidadi Xəlilovun elmi rəhbərliyi ilə 15 nəfərə dissertasiya müdafiə edərək, pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. O, pedaqogika üzrə fəlsəfə və elmlər doktoru elmi dərəcəsi almaq üçün müdafiə edən

24 nəfərin dissertasiya işinə rəsmi opponentlik etmişdir.

Professor V.C. Xəlilov Azərbaycan Alimlər İttifaqının estetika üzrə həmsədri, Təhsil Nazirliyinin Məktəbəqədər və ibtidai təhsil üzrə elmi-metodik şurasının sədr müavini, müxtəlif vaxtlarda Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetində Dissertasiya Şurasının üzvi Azərbaycan TPİ-də elmi seminarın sədri kimi səmərəli fəaliyyət göstərmişdir.

Onu da qeyd edək ki, "Akademik Vidadi Xəlilov-70" kitabında (Bakı: Nərgiz, 2012) alimin geniş yaradıcılıq fəaliyyətinin müxtəlif istiqamətləri konkret faktlarla nəzərə çatdırılır.

Professor Vidadi Xəlilov incəsənət xadimlərinin həyat və yaradıcılığına həsr olunan dəyərli monoqrafiyalarının müəllifi kimi də tanınılır. "Bəstəkar Süleyman Ələsgərov" (1985), "Süleyman Ələsgərov" (1989), "Bəstəkar Qənbər Hüseynli" (Bayram Hüseynli ilə) (1997), "Bəstəkar Oqtay Zülfüqarov" (1997), "Композитор Октай Зулфигаров" (1999), "Yazdıqlarım yazdıqları: ( 2012) və s. kitabları ali və orta ixtisas məktəblərində tədris prosesinə əhəmiyyətli təsir göstərir.

AzTV-nin qızıl fondunda saxlanılan "Əsrə bərabər ömür" (akamedik Mehdi Mehdizadəyə həsr olunub), "Bəstəkar Süleyman Ələsgərov" (Əliheydər Kamaloğlu ilə), telefilmlərin ssenariləri də professor V. Xəlilovun qələm məhsullarındandır.

Professor V. Xəlilov pedaqogikanın, müxtəlif məsələlərinə həsr olunan əsərlərin müəllifidir. Təqdirəlayiq haldır ki, həmin əsərləri bir yerə toplayaraq seçilmiş əsərləri 10 clilddə elmi –pedaqoji ictimaiyyətə təqdim etmişdir.

Mənəvi estetik tərbiyə probleminə həsr olunan "Muğamların tədrisinə dair metodik tövsiyələr" (1982), "Ustanın pedaqoji mədəniyyəti" (1986), "Ümumtəhsil məktəblərində estetik tərbiyənin inkişafı yolları" (1991), "Müəllimin estetik mədəniyyətinin yüksəldilməsi istiqamətləri" (1997), "Tələbələrin fəallıq mədəniyyəti", (1998), "Məktəbli mədəniyyəti" (1999), "Televizor və uşaqlar" (2002), "Məktəblinin etik-estetik aləmi" (2011) kitabları, tədris vəsaitləri almin yaradıcı əməyini parlaq şəkildə nəzərə çatdırır.

Professor V. Xəlilov ümumtəhsil məktəbləri üçün "Təsviri incəsənət" və "Musiqi" dərsliklərinin və proqramlarının müəllifi kimi də tanınılır. O, ilk dəfə olaraq Elitar gimnaziya üçün "Etika və etiket", "Estetika" (2004) proqramlarını hazırlayaraq nəşrinə nail olmuşdur.

Professor Vidadi Xəlilovun tədqiqatları başlıca olaraq müxtəlif yaş qruplarına malik olan məktəblilərin estetik tərbiyəsi problemlərinə həsr olunmuşdur. O, ümumtəhsil məktəbləri şagirdlərinin estetik tərbiyəsinin əsas mahiyyətinə, məqsəd və vəzifələrinə, prinsip və metodlarına, təşkilinin səmərəli yollarına aydınlıq gətirmişdir. O, təlim prosesində, və sinifdənxaric tədbirlərdə estetik tərbiyənin təşkilinin nəzəri və təcrübi məsələlərini araşdırmış, bu işin sistemini müəyyənləşdirmişdir. "Uşaq və yeniyetmələrin, məktəbli gənclərin estetik tərbiyəsini yüksəltmək üzrə hamılıqla fəaliyyətin kompleks proqramı" hələ 1991-ci ildə nəşr edilmiş, SSRİ Pedaqoji Elmlər Akademiyasının müvafik institutlarında maraqla qarşılanmış, müsbət rəylərə səbəb olmuşdur. Daha səhih desək, Vidadi müəllim təhsilalanların estetik tərbiyəsinin təşkili üzrə özünəməxsus məktəb yaratmışdır. Təqdirəlayiq haldır ki, onun doktorant və dissertantları da elmi rəhbərlərinin yolunu inamla davam etdirir. Estetik tərbiyənin bu və ya digər problemlərini tədqiqat obyektinə çevirirlər.

Professor, Azərbaycan Respublikasının əməkdar müəllim Vidadi Cəmil oğlu Xəlilov narahat insandır. Gecəsini gündüzünə qatıb çalışan, məqsədinə çatınca rahatlığın nə demək olduğunu bilməyən səriştəli tədqiqatçıdır, öz dəsti-xətti olan alimdir.

Təsadüfi deyildir ki, o, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının ümumi iclasının 22 aprel 2011-ci il tarixli qərarı ilə akade-miyanın həqiqi üzvi, akademiki seçilmişdir.

Vidadi müəllim xeyirxah insandır. İş yoldaşlarına münasibətdə səmimidir, o, doktorant və dissertantlarına əlindən gələn köməyi əsirgəmir. Onların uğurlarına qəlbən sevinir.

Vidadi müəllim gözəl ailə başçısıdır. Bir oğul, üç qız, atasıdır. Ailəsinin rifahı üçün dəridən-qabıqdan çıxandı. Buna görə ailə üzvləri də öz uğurları ilə həmişə onu sevindir.

Vidadi müəllim nikbin insandır. Gələcəyə, işıqlı sabaha həmişə ümidlə baxır. İnsanı yaşadan, ona qol-qanad verən nikbinlik, xoş əhval, ailə xoşbəxtliyi, səmimiyyət, qəlb təmizliyi, təvazökarlıq, yaxşılıq etməyi, lazım gələndə baş-

qasına əl tutmaq, kömək etmək onun şəxsiyyətinin heyrətamiz cəhətlərindəndir.

Professor Vidadi Xəlilov özünü sağlam, bəxtiyar, şən, gümrah, hiss edir. Onun üzündən təbəssüm əskik olmur. Bu cür ülvi, bəşəri keyfiyyətlər, başqalarında da xoş ovqat yaradır. Mahiyyət dolğunluğu ilə nəzərə çarpan əsərlər yaratmaq barədə düşünür.

İnstitutun baş elmi məsləhətçisi kimi gənclərə daima diqqətlə, qayğıyla yanaşır.

Xoş ovqatlı, xeyirxah əməlli, ölkəmizdə və onun hüdudlarından kənarda tanınan sayılıb-seçilən alimi - professor Vidadi Xəlilovu anadan olmasının 75, elmi-pedaqoji fəaliyyətinin 50 illiyi münasibətilə təbrik edir: Sağlam, uzunömürlü ol, yeni-yeni əsərlər yarat deyirik!

**Faiq Şahbazlı,**
*ARTİ-nin Elmi-Pedaqoji Mərkəzinin direktoru,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*

**Akif Abbasov,**
*ARTİ-nin elmi katibi,*
*pedaqogika üzrə elmlər doktoru, professor*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*elmi katibi*